Təhsil naziri Emin Əmrullayev ölkəmizdə səfərdə olan Türkiyənin milli təhsil naziri Ziya Selçuk ilə birlikdə Quba şəhərini zıyarət edib.

Ziyarət zamanı nazirlər Quba şəhərinin İqriq kəndində yerləşən Türk əsgərinin məzarlarının önünə gül dəstələri qoyublar. Daha sonra nümayəndə heyəti Azərbaycan-Türkiyə qardaşlıq parkını ziyarət edib.

Səfər çərçivəsində nazirlər Quba Soyqırımı Memorial Kompleksində olublar. Türkiyənin milli təhsil naziri Ziya Səlçuka 1918-ci ildə azərbaycanlılara qarşı törədilmiş soyqırım haqqında ətraflı məlumat verilib.